Aqrar Xidmətlər Agentliyi

# ARMUDDA DƏMGİL
## (Venturia pirina Aderh.)



088-588
axa.gov.az

## Xəstəlik haqqında

Xəstəliyin törədicisi F.pirinum Fuck. adlanan göbələkdir. Xəstəliyə bitkinin yarpaq, meyvə və zoğları yoluxur. Yarpaqlarda dəmgil əvvəlcə zəif görünən xlorotik, sonra tünd-boz, xaraterik zeytuni-məxməri örtük formasında nüfüz edir. Armudda dəmgil ləkələri yarpaq ayasının alt hissəsində meydana gəlir. Dəmgilin ilkin simptomları adətən çiçəkləmə fenofazasının sonunda, ləçəklərin kütləvi tökülməsi dövrü baş verir. Bəzən yarpaq itkisi 50-80%-ə çatır. Çiçək və toxumluğun dəmgillə kütləvi yoluxması zamanı məhsul tam məhv ola bilir. Erkən yoluxmada meyvələr cırtdanlaşır, partlayır, vaxtından əvvəl tökülür.

## Mübarizə tədbirləri

- İnfeksiya mənbəyi olan tökülmüş yarpaqlar məhv edilməli;
- Cərgəaraları becərilməli;
- Budama vaxtında aparılmalı;
- Qışda zədəli və qurumuş yarpaqlar kəsilməli;
- Vegetasiya müddətində çətir daxili sıxlıqlar seyrəldilməli.

**Təsiredici maddəsi** Metil (0,15 kq/ha), Mankozeb (0,25 kq/ha), Maneb (0,3 kq/ha) olan preparatların biri və ya 1%-li bordo məhlulu ilə mübarizə tədbirləri aparılmalıdır.





**Zədəsi**